# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər



20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.

YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Partiya nümayəndələri tərəfindən "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.




Azərbaycan.- 2024.- 23 yanvar (№ 13).- S.3.